**Azərbaycan Respublikasından Avropa İttifaqı ölkələrinə yeyinti məhsullarının ixracının tənzimlənməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ FƏRMANI**

Azərbaycan Respublikasından *yeyinti* məhsullarının Avropa İttifaqı ölkələri bazarlarına ixracının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. *Müəyyən edilsin ki, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Avropa İttifaqı ölkələrinə ixrac edilən yeyinti məhsullarının istehsalı və emalı müəssisələrində infrastruktur və məhsulların təhlükəsizlik meyarları üzrə ekspertizaların keçirilməsi, müəssisələrə təsdiqedici kod nömrələrinin və ixracatçılara ekspertizanın nəticələrini təsdiq edən sənədlərin verilməsi, həmin məhsulların keyfiyyətinə nəzarət sisteminin tətbiq edilməsi, istehsal və emal müəssisələrinin reyestrinin aparılması sahəsində və Avropa İttifaqının bu sahədə müvafiq tələblərinin icrasını həyata keçirmək üçün vahid səlahiyyətli orqandır.*

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

2.1. Avropa İttifaqı ölkələrinə *yeyinti* məhsullarının ixracı zamanı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi tərəfindən keyfiyyət sertifikatlarının verilməsi qaydasını və sertifikatların nümunəsini təsdiq etsin;

2.2. Azərbaycan Respublikasının qanunvericilik aktlarının bu Fərmana uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

*3.* Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu fərmanın 1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin *yeyinti* məhsullarının Avropa İttifaqı ölkələrinə ixracının tənzimlənməsi sahəsində vahid səlahiyyətli orqan müəyyən edilməsi barədə Avropa İttifaqına müvafiq bildiriş göndərsin.

*4.* Bu fərman dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**

**İlham ƏLİYEV**

**Bakı şəhəri, 1 aprel 2005-ci il**

**№ 218**